# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında**

"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun işçilərinin aylıq vəzifə maaşlarının cədvəli bu Qərarın əlavəsinə uyğun olaraq müəyyən edilsin.

2. Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 31 yanvar 2023-cü il

№ 28

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 31 yanvar
tarixli 28 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**əlavə**

**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun işçilərinin aylıq vəzifə maaşlarının**

**CƏDVƏLI**

| **Sıra №- si** | **Vəzifələrin adı** | **Aylıq vəzifə maaşı (manatla)** |
|---|---|---|
| 1. | İşçi qrupunun rəhbəri | 1760 |
| 2. | İşçi qrupunun rəhbərinin müavini | 1228 |
| 3. | Baş məsləhətçi | 890 |
| 4. | Böyük məsləhətçi | 794 |